30 yanvar / 2021

# "Gündoğandan günbatana" baxanda




Xalq yazıçısı Mirzə İbrahimovun "Səni görəndə gəncliyimi xatırlayıram" - deyə ünsiyyət bağladığı, ustad sənətkarımız Mir Cəlal Paşayevin "...tez-tez görün, səni görəndə mənim əhval-ruhum təzələnir" - deyə xətrini əziz tutduğu Yasif Nəsirlinin "Gündoğandan günbatana" kitabına daxil edilən xatirələrdə bu sıradan çox isti məqamlar yer alıb. Sovetlər dönəminin tabutunda məzara gömülən DTK kabusunun illərin o üzündə qalmış xofu qarşılığında xalq şairi Bəxtiyar Vahabzadənin aşadığakı fikirlərinə göz atmaq necə də xoşdur: "Yasifi tələbəm olduğu illərdən tanıyırdım... O, uzun illər DTK-da rəhbər işdə çalışıb. Həmin illərdə çoxlu ziyalılarımızı ölümdən, şərdən, böhtandan xilas etmişdir. Onlardan biri də mənəm. Əgər Yasif olmasaydı mən bugünkü Bəxtiyar olmazdım. Mən bu günüm üçün ona minnətdaram".

Bu səmimi etirafın başlıca qaynağı ordan gəlir ki, "Yasif hər adamın öz çəkisini dəqiq bilən, mərd, qayğıkeş, təmiz, sadə şəxsiyyətdir" (Qasım Qasımzadə). Və vaxtilə bu sadə, qayğıkeş, mərd insana xitabən akademik Tofiq Köçərlinin yazdığı sətirlər bugünün özündə də dərin heyranlıqla oxumaqdıdı: "Həyatın sərt dönüşləri, siyasi zəlzələləri insanlar üçün böyük sınaqdır, Yasif! Çoxları belə sınaqdan çıxa bilmirlər. Sən, qardaş, tab gətirdin, büdrəmədin. Şəxsiyyətini qorudun və ləyaqətini saxladın..."

Görkəmli yazıçı Cəmil Əlibəy bu isti, qürurverici etirafları bir az da irəli aparır, özünəməxsus səmimiyyətlə süsləyirdi: "Mənim analı dünyamın adamlarından - mənim ən acı və şirin günlərimin şahidlərindən və dayaqlarımdan ən etibarlısı kimi səni həmişə özümə qardaş bilmişəm..."

Akademik İsa Həbibbəylinin, şair-publisist Hidayət Orucovun, xalq artisti Tofiq Quliyevin, şair və yazıçılardan Musa Ələkbərlinin, Taleh Həmidin, Əbülfət Mədətoğlunun, Əziz Musanın, professor İmadəddin Zəkiyevin və başqalarının Yasif müəllim barədə yazdıqları da eyni səmimiyyət duyğuları ilə oxunur.



Şair-publisist Əli Rza Xələflinin ön sözü, professor Qəzənfər Paşayevin redaktorluğu ilə çap edilən "Gündoğandan günbatana" kitabına Y.Nəsirlinin dünyanın müxtəlif ölkələrinə etdiyi səfərlərin xoş təəssüratlarını əhatələyən xatirələri də daxil edilib.

*Sərvaz* ***HÜSEYNOĞLU***